# Günün reallıqları Azərbaycanın geosiyasi məkanda durmadan güclənməsinin göstəricisidir

***Təkcə zəruri karbohidrogen ehtiyatları ilə deyil, eyni zamanda qətiyyətli diplomatiyası, uğurlu xarici siyasət kursu ilə önə çıxan Azərbaycanın Avropada mövqeləri gündən-günə möhkəmlənir. Bugünkü reallıqlar hər kəsi Azərbaycanla hesablaşmağa, onu regionun mötəbər söz sahibi kimi qəbul etməyə yönəldir. Yeri gəlmişkən, ölkəmizin BMT Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış məlum qətnamələrinin tələblərini 44 günə həyata keçirməklə – erməni işğalı altında olan əzəli torpaqlarımızı "Dəmir yumruq" əməliyyatı sayəsində azad etməklə dünyada mövqelərini əsaslı surətdə möhkəmləndirib. Bunu bədxahlarımız belə etiraf edirlər.***

Bildiyimiz kimi, son vaxtlar qlobal enerji siyasətində əsas istiqamətlərdən biri enerji keçididir. Bu, özündə ən müasir texnologiyalarla ənənəvi enerji resurslarının bərpa olunan mənbələrlə əvəzlənməsini ehtiva edir. Həmin texnologiyalar inkişafı və "yaşıl enerji"yə keçidi sürətləndirməkdədir. Bu baxımdan, Cənub Qaz Dəhlizi layihəsinə davamlı dəstək göstərən Azərbaycan Prezidenti İlham Əliyevin Məşvərət Şurasının son iclasında səsləndirdiyi fikirlər, aktuallaşdırdığı məsələlər gələcək fəaliyyət üçün aydın istiqamətlərdir.

Onu da xatırladaq ki, XXI əsrin ən böyük layihələrindən olan Cənub Qaz Dəhlizi üzrə Məşvərət Şurası məhz bizim dövlətimizin başçısının təşəbbüsü ilə yaradılıb. Həmin çərçivədə nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir. Bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amildir.

**(ardı 2-ci səhifədə)**

Xalq qəzeti .- 2022.- 6 fevral.- S.1;2.

# Günün reallıqları Azərbaycanın geosiyasi məkanda durmadan güclənməsinin göstəricisidir



*(əvvəli 1-ci səhifədə)*

Budəfəki toplantıya qatılan Avropa İttifaqının (Aİ-nin) energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən cənab İlham Əliyev bildirib ki, Aİ-nin enerji təhlükəsizliyinin təmin olunmasında uğurla tamamlanmış və dəyəri 33 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizi əvəzsiz rol oynayıb. Bu sahədə əməkdaşlığa dair birgə bəyanatın imzalanmasından 10 il keçir. Aİ ilə Azərbaycan arasında işbirliyi artıq yeni mərhələyə qədəm qoyur. Cənub Qaz Dəhlizi layihəsi də birgə əməkdaşlıq və əlaqələndirmə şəraitində uğurla başa çatıb. Məşvərət Şurası çərçivəsində Bakıda aparılan müzakirələr, ikitərəfli və çoxtərəfli əsasda işbirliyi üzrə yeni ideya və planların ortaya qoyulması nikbinlik yaradır. Özü də bu toplantı Cənub Qaz Dəhlizi xətti ilə mavi yanacağın Avropaya çatdırılmasından bir il sonrakı dövrə, həm Aİ-nin, həm də Azərbaycanın yeni "yaşıl enerji" strategiyasına keçid mərhələsinə və hazırda dünya qaz bazarında baş verən qiymət dəyişmələri və digər tendensiyalar şəraitinə təsadüf edirdi.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında çıxışı zamanı Prezident İlham Əliyev həm Avropaya qaz nəqlinin perspektivləri, həm də digər sahələr üzrə infrastruktu layihələrdən, eləcə də ikitərəfli və çoxtərəfli münasibətlər sahəsində günün reallıqları barədə fikirlərini ifadə edib. Azərbaycanın işğaldan azad edilmiş əraziləri üçün xüsusi proqramının olduğuna diqqəti cəlb edən dövlət başçısı bildirib ki, artıq aparıcı beynəlxalq şirkətlərlə birlikdə Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz hazırlanıb. Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirməsi aparılıb və ilkin rəqəmlər çox ümidvericidir: külək enerjisində potensial, təxminən, 7200 meqavat, Günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. İnvestisiyaların yatırılması ilə bağlı aparıcı beynəlxalq enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir. "Bizdə bununla bağlı böyük ruh yüksəkliyi var. Düşünürəm ki, bu, Azərbaycanda "yaşıl enerji"nin inkişafına dair bizim daxili strategiyamızın bir hissəsi olmaqla yanaşı, ixracdan əldə olunan gəlirlər üçün əlavə mənbə ola bilər və enerji mənbələri idxal edən ölkələr üçün də faydalı olacaq".

Göründüyü kimi, sözün həqiqi mənasında Azərbaycan öz enerjisini, potensialını sabaha nəql etməkdədir. Əlbəttə, dünyada enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi ilə bağlı məsələlərin həlli olduqca mühümdür. Eyni zamanda, ölkələrin, millətləri təhlükəsizliyi, sülhyaratma prosesləri ilə bağlı məsələlər də gündəmdədir.

Məlum olduğu kimi, Şarl Mişel və Emmanuel Makronun məlum bəyanatında ATƏT-in Minsk qrupuna heç bir istinad yox idi və bu, artıq Qarabağ münaqişəsinin həll edilməsi ilə razılaşmaq kimi qəbul edilməlidir. Moskva, Soçi və Brüsseldə keçirilmiş görüşlərin mahiyyətinə görə, nəinki Minsk qrupu ilə bağlı, heç Dağlıq Qarabağ münaqişəsi və Qarabağ kimi ifadələr də xatırladılmayıb. Bu isə bir daha Qarabağ mövzusunun, o cümlədən də qondarma quruma status verilməsinin gündəlikdən çıxmasının növbəti nümunəsidir. Artıq Fransa da ATƏT-in MQ həmsədri olaraq bu reallığı qəbul edir.

Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyi davam edir. Fevralın 4-də Fransanın Avropa İttifaqına sədrliyi qismində təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüş keçirilib. Əvvəlcə 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilmiş birgə görüşün əhəmiyyəti vurğulanıb. Sonra Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr keçirilib. İki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

Müzakirə olunan məsələlər barədə Azərbaycanın mövqeyini bir daha vurğulayan Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq diqqət verib.

Videoformatda görüş irəliyə doğru daha bir addımdır. Orada UNESCO-nun Azərbaycana və Ermənistana missiyasının göndərilməsinə dair razılığın ifadə olunması da vacib amildir. O mənada ki, obyektiv yanaşma sayəsində dünya bir daha erməni vandalizminin nəticələrini görüşdə Azərbaycan tərəfinin isə mədəni və dini irs nümunələrinə qayğıkeş münasibətinə dair əsaslı faktlarla tanış ola biləcək.

Başlıca reallıq budur ki, dinamika sülh sazişi üzrə danışıqların uğurlu sonluğuna doğru gedir və çox çəkməz ki, bu da gerçəkləşər. Azərbaycanın işi haqq işidir və dünya da bu reallıqla barışmalıdır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***